**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 19 fevral (Çərşənbə günü) tarixli 117-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Çaharşənbə, 18 cəmadiyələvvəl sənə 1337.
19 şubat sənə 1919.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 80 qəpik.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 18 rublə,
2 aylığı 32 rublə, 3 aylığı 45 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublədir.

Elan fiatı: sətri 3 rublə. Kərratla gedən elanlar üçün güzəşt edilir.

## İNNA LİLLAHİ VƏ İNNA İLEYHİ RACİUN

Əliheydər Babayev, Xaliq, Ələsgər və Əliməhəmməd Lütfəliyevlər əvvəlincisinin dayısı oğlu və axırıncıların qardaşı **Ələkbər Lütfəliyevin** vəfat etdiyini kamali-hüzn və təhəssürlə [böyük bir hüzn və kədərlə] öz qövm-əqraba və dost-aşnalarına xəbər verirlər.

Starı poçtovı küçədə 15-inci dalan 3 nömrəli evdə.

Dəfn günü əlahiddə elan olunacaqdır.

## QİSMİ-RƏSMİ

**Qubernatorun əmri**

Bakı qubernatoru Rəşid bəy Axundzadə cənabları tərəfindən Bakı quberniyasına zeyldəki [aşağıdakı] əmrnamə sadir olmuşdur [verilmişdir]:

*Bakı qubernatoru vəzifəsini ifaya başladıqda mən hər şeydən əvvəl şəhərin və Balaxanı-Sabunçu dairəsinin əhvalı ilə aşina olmaq və təhti-idarəmdə [idarəm altında] olan quberniyada və əlalxüsus [xüsusilə] Bakı şəhərində davam edən və get-gedə artmaqda olan cinayət və qətl-qarətin səbəblərini bilmək istədim və bildim ki, bu səbəblərdən birincisi qaradavoylar tərəfindən post qulluğunun nəhayətdə pis bir sayaqda aparılması və çox vaxt heç olmamasıdır. Bir çox yerlərdə qaradavoy yoxdur. Olan yerlərdə də onlar qanuna görə küçənin ortasında deyil, səkilərdə və çayxanalarda dururlar. Okolotoçniklər [polis sahə rəisləri] qaradavoyların postlarını təftiş etməyirlər. Bu isə mühafizə nöqteyi-nəzərindən birinci dərəcədə əhəmiyyətli vəzifədir.*

*Buna binaən [əsasən] fevralın 7-sində verilən əmrə əlavə olaraq Bakı qəlabəyisinə təklif edirəm: Bu gündən etibarən küçələrin ortasında qaradavoyların post qulluğunu təyin etsin. Bu isə məmurların təhqiq etmək vəzifəsini asanlaşdırıb və əhaliyə zərurət vaxtında kömək tapmağa imkan verər. Qaradavoylar üçün təyin edilmiş olan formanın hazırlanmasına və okolotoçniklərin indidən postlarda və nəzarət və təhqiqata başlamalarına pristavlar tərəfindən əmr verilməlidir.*

*Bunlardan əlavə, hangi uçastokda şiddətli dərəcədə cinayət və qətl-qarət davam etməsini bilməkdən ötrü Bakı və Balaxanı-Sabunçu qəlabəylərinə təklif edirəm ki, bundan sonra hər uçastokda nə qədər böylə ittifaqlar [hadisələr] olduğu barəsində hər gün mənə məlumat versinlər ki, tezliklə həman uçastoka gecələr sayyar dəstələr göndərmək və postların miqdarını artırmaq mümkün olsun.*

*Bakı qəlabəyinə təklif edirəm ki, Nikolayevski və Velikoknyajeski küçələrin küncündə "Metropol" mehmanxanası yanında okolotoçniklərdən ibarət növbətçi post qulluğu təyin etsin.*

*Balaxanı-Sabunçu qəlabəyisi [polismeysteri] Lütfəli bəy Əmircanova və onun müavinlərinə və bütün məmurlara Balaxanı-Sabunçu mədən dairəsində nizam və asayiş bərpa edib və polis qulluğunu tərtibə salmaqla səkitlik vücuda gətirməsindən dolayı vəzifə namına təşəkkürətimi izhar edirəm. Böylə nizam və asayişi kəndim görüb və yaqin hasil etdim.*

*Bakı təhərri [axtarış] polisinin fəaliyyəti lazımi dərəcə deyildir. Onun öhdəsində olan vəzifə istənildiyi sayaqda ifa edilməyir. Bir qədər ciddi surətdə diqqət və etina edilərsə, bundan daha böyük faydalar hasil etmək olar. Binaənileyh, təhərri polisi nəçalnikinə təklif edirəm ki, xəfiyyə işlərini tənzim etmək barəsində öz nəzəriyyətını tezliklə mənə təqdim etsin. Xəfiyyə işlərinin davamı, tövqif [həbs] edilən canilər, tapılan şeylərin müqəddəratı və onları tövqif edən və tapan məmurlar barəsində hər həftə mənə məlumat təqdim edilməlidir.*

*Bakı qubernatoru:*
*Rəşid bəy Axundzadə*
*16 fevral 1919*

## HƏR SÖZƏ ALDANMAYALIM

Parlaman iclaslarında danışılan sözlər hələ küçələrdə davam etdirilir. Əhali arasına min cürə həvadis [xəbər, şayiə] yayır, min ara qarışdırıcı sözlər söyləyirlər.

Keçirməkdə olduğumuz bu kimi zamanlarda, bir zamanda ki, Parlaman və hökumət ənvai [cürbəcür] müşkülat içindədirlər, bir zamanda ki, hökumətimiz, istiqlalımız var deyə ciddən xatircəm olmaq halında olmadığımızı ağlı şey kəsən məktəb şagirdləri belə təsəvvür edə bilərlər, bir zamanda ki, xalq içərisindən çıxma həmiyyətmənd bir pirsalxordənin [qocanın] dediyi kimi "südün üzü halə qaymaq tutmaqdadır", bir zamanda ki, bir dosta müqabil min düşmən qarşısındayız, bir zamanda ki, yeni qurulmaqda olan dövlətlər deyil, əsrlərdən bəri böyük bir dövlət həyatı ilə yaşamış olan dövlətlər, millətlər belə zamanın taqətfərsa [dözülməz] ağırlıqları altında inildəyirlər, böylə bir zamanda həmiyyəti, qeyrəti və bunlardan əvvəl hiss və idrakı olan bir azərbaycanlı hər sözə aldanmamalı, hər eşitdiyinə inanmamalıdır.

Neçə gündən bəridir şəhərə bir küy salmışlar, hər kəsdə hökumətə, vəziyyətə qarşı bir şübhə və etimadsızlıq hissi oyatmışlardır. Xalqı yerindən oynadaraq nümayişlər etməyə belə meyl etdirənlər, təhrik edənlər olmuşdur.

Burada başqa qoşunlar yığışır, ermənilər könüllü yazılır, kazarmaları, evləri tuturlar. Buna da hökumət etina etməyir, göz qoymayırmış.

Bizi satırlar, evimizi yıxırlar, Mart günləri gəlir, həp yatırlarmış.

Yüngül əllərdən gövşək ağızlara atılan bu sözlər gündə bir rəng və bir əlavə ilə ortaya çıxır, xalqı həyəcana verir.

Fəqət xalq düşünməlidir. Bilməlidir ki, şübhə hər həqiqətin anası olsa da, daima kəndi etimadkərdələrini [etimad edilmiş şəxslərini], müqəddəratını tapşırmış olduğu heyəti, adamları sui-zənn altına almaq, onlara inanmamaq da doğru bir hərəkət deyildir.

Zənn edilirmi ki, küçənin qeyri-məsul adamları və yaxud tənqidlərini qayət fəna bir şəkildə küçələrə çıxaran bəzi "millət dadxahları" [millətin "imdadına çatanlar"] tənqid eylədikləri, bəyənmədikləri dövlət adamlarından, millət vəkillərindən daha ürək yanan, daha basirətli və daha iş bilən olsunlar?!..

Küçə münəqqidləri [tənqidçiləri] ilə camaat küyləyən əfəndilər, əksərən cəsur və durbin [uzaqgörən] olmaqdan ziyadə, qorxaq və kutahbin [dargörüşlü] olanlardır.

Ruslarda bir təbir var ki, ona "obıvatelşina" deyərlər.

Türkcə ədəbiyyatda bunu "amiyanə" [avam] deyə tərcümə etmək gərək. Amiyanə düşünənlərcə bir çox şeylər var ki, insan onları görərkən yerindən olmaya bilməz. Fəqət bir az diqqət olununca baxarsınız ki, pək də xoflanacaq bir hal yoxdur.

Bizim keçirməkdə olduğumuz kimi müşkül zamanlarda nöqsan gördüyümüz camaat işlərində hökumətə zor gəlmək kimi həm faydalı, həm də zərərli bir hal təsəvvür etməyiniz!

Öylə zamanlar var ki, hökumətin əfkari-ümumiyyə [ictimaiyyət] tərəfindən təzyiq edilməsi mətlubdur [arzuediləndir]. Bu təzyiq hökumətin bəsirətini açar, görəcəyi təşəbbüslərdə kəndisinə xidmət edər. Bu şərtlə ki, bu təzyiq hüsnniyyətlə, hökuməti irşad [aydınlatmaq] qəsdi ilə olsun. Yoxsa öylə bir təzyiq də var ki, hökuməti rüsvay etmək, düşürmək üçün olur. Yerinə görə, zamanına görə bunun da bəlkə faydası ola bilər. Fəqət keçirdiyimiz zaman kimi vaxtlarda bu ikinci tədbirin hər zaman fəlakətlərlə nəticələndiyi təcrübələrlə görülmüşdür.

Bir kərə Mart hadisələrini xatırlayınız. Martdan əvvəl bolşeviklərlə daşnakların hərəkatı o zamanki müsəlman idarələri, müsəlman firqələri, "Müsavat"la sair müəssisələrə məlum deyilmiydi?...

Əlbəttə ki, məlum idi. Məmafih [bununla belə], onlar sikkənin o biri üzünə də aşina olduqlarından, həqiqi qüvvətlərin tənasübünü ölçmək imkanında olduqlarından, təbiri-məxsusla [necə deyərlər], idareyi-məsləhət edir [vəziyyəti pis-yaxşı idarə edir], müsaid bir günün gəlməsini gözləyərək bir növlə müdara və rəftar edirlərdi [səbr edirdilər, dözürdülər].

Halbuki əmmamələrini əllərinə götürüb küçəyə çıxanlar, məntiqə deyil, boğazlarına güc verənlər, milli idarələrin tövsiyəsinə, "Müsavat"ın iltimas və ricasına, onların sükun və etidala dəvət edici bəyannamələrinə baxmayaraq məhud [məlum, hamının bildiyi] "ultimatum"u yazdırdılar. Sonra da zəbtü rəbtdən [nəzarətdən] çıxmış camaatı saxlaya bilmədilər. Olan oldu, istənilməyən nəticə alındı.

Bu təcrübəni xatirdə saxlamalıyız. Hər zaman hissiyyatımız cuş edərkən [coşarkən], cuşa gələn hissiyyatımızı boşuna sərf etməyib, kəndimizi zəbt etməliyiz. Həyəcan, qələyan [coşma] və üsyanımızı daima müntəzəm bir surətdə işlətməliyiz. Bu intizamı isə bizə yalnız bir şey verə bilər: hər eşitdiyimizə inanmayıb, hər rəhbər ardından getməmək!

Qailə deyil, qövlə bax; yəni danışana deyil, danışığa bax – deyə siyasətdən başqa hər xüsusda qayət doğru bir düstur vardır. Fəqət siyasətdə, yəni dövlət və camaat işində isə yalnız danışığın ürəyə sinən olduğu bəs deyildir. Lazımdır ki, danışanın etibarı, həmiyyəti, qeyrəti və hər şeydən əvvəl keçmişi bəlli olsun.

Nəticəsi şəxsə deyil, bütün millətə, xeyri və ya zərəri bir dəstəyə deyil, böyük bir camaata, bir millət və ya dövlətə toxunacaq işlər üçün "qailə deyil, qövlə bax" düsturundan ziyadə "qövlə də, qailə də bax" [sözə də bax, onu deyənə də] düsturu daha doğru və daha salim [sağlam, salamat] bir düsturdur.

Əvət, vətəndaşlar, müşkül bir mövqedəyiz. Mövqemizin müşküllüyü yalnız əngəllərimizin çoxluğunda deyildir. Bizi hidayət edənlər, bizə yol göstərənlərin çoxluğu da müşkülatımızın böyüyünü təşkil etməkdədir.

Bilsəniz ki, bu zavallı məmləkət nə qədər intriqalara, nə qədər propaqanlara məruzdur. Bu propaqanlardan hangisinin məmləkət faydası və millət dərdi ilə söyləndiyi, hangisinin qərəz və mərəzlə ərz olunduğunu bilmək, seçmək gərək. Onun üçün də yalnız danışığa deyil, danışana da diqqət etməli, həm qövlə, həm də qailə baxmalıdır! Çunki "söyləyəni" deyil, "söylədiyini" tövsiyə etmişlərsə də, haqq sözlə batil məqsəd örtənləri də göstərmişlərdir.

*M. Ə. Rəsulzadə*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 10-cu iclas

### Üçüncü gün

*(Keçən nömrənin axırı)*

**Fətəli Xan Xoyski** (Baş vəzir) - Möhtərəm məbuslar! O günlər ki, siz neçə dəfələrlə mənə müraciətən [müraciət edərək] bu hökumətin təşkilinə məni vadar etdiniz, mən birinci bəyannamədə sizə demişdim, inşallah yadınızdan çıxmamışdır, mən o vaxt sizə dedim ki, böylə xətrəli [təhlükəli] bir zamanda heç kəs cəsarət edib zimami-hökuməti [hökumət yüyənini] əlinə almaz. Bununla bərabər, əgər biz o vəzifəni öhdəmizə götürürsək, ancaq sizin sidqidil [təmiz ürək] ilə hökumətin dalında durub kömək edəcəyinizə ümid oluruz. Buna inanıram, əgər görsəm ki, sədaqət yoxdur, bir dəqiqə hökumət başında durmaram. Bunu mən o vaxt dedim və bu sözlər yaddan çıxmazlar. Əlbəttə, mən bilirəm ki, hökumətə kömək cürbəcür olar. Sorğu vermək özü də bu cür köməkdir. Bəzi vaxt öylə məqam olur ki, bəzi şeylər barəsində tədbir görmək yaddan çıxır, bəlkə hətta hökumətin bəzi şeydən xəbəri olmur. Öylə ittifaqlarda [hallarda] gərək məbuslar sorğu vasitəsi ilə əhvalı hökumətə bildirsinlər, borcludurlar soruşsunlar, məsələn, filan kənddə buğda yığırlar, hökumətə məlumdurmu, filan iş niyə böylə olur, hökumət buna bir çarə edirmi? Böylə sorğular Parlaman tərəfindən hökumətə bir köməkdir. Heç hökumət böylə sorğudan inciməz. Əgər bir əsas düz deyilsə, Parlaman sorğu versin, düzəlməsini tələb etsin. Biz sorğunu həmişə artıq dərəcə məmnuniyyətlə qəbul edəriz. Amma, möhtərəm məbuslar, sorğu da var, sorğu da var. Bir sorğu var ki, atanın oğluna verdiyi nəsihət kimidir. Bir sorğu da var ki, zəhərli, bədxahlıq sorğusudur. Zənn edirəm, bu ikinci kimi sorğularla heç vaxt iş qabağa getməz. Böylə sorğu Parlaman ilə hökumət arasında süpürüşmə və oyuncaq meydanı olar. Bu sorğu hökumətə badalaq vurmaq, biz soxmaq deməkdir. Aya [görəsən], bu o zamandır ki, hökumətə badalaq vurulsun? Aya, Azərbaycanın halı öylədirmi ki, hökumətlə süpürüşülsün? Belə də sorğu olar?

Bu öylə bir zamandır ki, gərək hökumətlə məhəbbət dili ilə danışasan. Hökumətə deyəsən filan işdə səhv var, gəl biz də sənə kömək edək, düzəldək, bunu belə eyləmək lazımdır. Hökumətlə bu dil ilə danışmaq gərəkdir. Böylə olsa hökumət üçün köməkdir. Mən belə bilirəm ki, heç hökumətlə özgə dil ilə danışmaq olmaz və hökumət qəbul etməz ki, danışılsın. Mənim yoldaşlarım burada puldan ötrümü, yaxud yox olan ixtiyardan ötrümü əyləşmişlərdir? Aya, bu müqəssirlər skamyasıdır ki, hərə gəlib bir söz desin, bir ləkə yapışdırsın? Aya, bizim tərəfimizdən böyük fədakarlıq, millətə böyük xidmət deyilmi ki, öz səlamətliyimizi, bu saat bazarlarda danışılan təmiz adımızı və rahatlığımızı millətə fəda edərək bu skamyalarda əyləşiriz, hərə bir söz deyir, hətta ixtiyarımız yoxdur onlardan bir qədər ehtiramla davranmağı tələb edək?

Doğrudur, çox şeylər olub, Nəzarətlərdə [Nazirliklərdə] çox qüsurlar var, məmurlar rüşvətlər almışlardır, bəzi üsulsuzluqlar olur, bunların heç birini gizlədən, pərdələyən yoxdur. Hökumət bunu bilir, əlindən gələn işləri eyləyir və eyləyəcəkdir də. Müqəssirlərin təqsirini aydınlaşdırmaq üçün istintaq edilir, sonra məhkəməyə veriləcəklərdir. Bu barədə nazirlər bəyanat verdilər. Ancaq mən bunu da deməliyəm ki, bununla bərabər hökumət bir fövqəladə istintaq komisyonu da təşkil edir ki, bu işlərə baxsın. Çünki adi istintaq və məhkəmələr kifayət etməyirlər. Fövqəladə komissiya lazımdır.

Hökumətin borcudur bu işləri görsün, görəcəkdir də. Mənim fikrim bunları göstərmək deyil, əsl mətləb sorğunun mahiyyətindədir. Bu sorğu adəti deyil, heç Parlamanda böylə sorğu görülməmişdir. Adət böylədir ki, hökumətə sorğu verəndə əvvəlcə deyərlər ki, filan yerdə filan şey olubdur. Filankəs filan işi gorübdür; bu, hökumətə məlumdurmu və nə tədbir görür? Sorğu böylə olar. Yoxsa heç bir şey göstərmədən sorğu verəsən, hökumətdən cavab aldıqdan sonra başlayasan ki, xeyr, böylə deyildir, filan-filan olubdur. Bu sorğu deyil, dalında yumruq, cibində daş gizlətməkdir ki, hökuməti qəflətən vurasan. Böylə sorğuya nə cavab vermək olar? Parlamanda heç böylə adət yoxdur və bu hökumət dili deyildir ki, hökumətlə bu dil ilə danışırlar. Hər şeyin xasiyyətinə fikir vermək lazımdır. Siz gərək həmişə nəzərdə tutasınız, hökumət ki, bu övzada [vəziyyətdə] dolanır, bu nə aləmdir, nə övzadır, bunu siz bilirsiniz. Çünki mümkün deyil Parlamanda oturanlar bilməsinlər. Siz bunu bilirsiniz ki, Azərbaycanın istiqlalı hər dəqiqə təhlükədədir. Biliniz, indi öylə bir vaxtdır ki, nəinki bez və çit, hətta öylə əhval çıxa bilər ki, Azərbaycan belə qalmaz, istiqlalımız gedər. Böylə mühüm zamanlarda hökumət işlərini Tağıyev fabrikasının bezi ilə ölçmək olarmı? Bu məqamda, bu cür ki, sorğu verilir, aşkardır ki, bu xeyirxahlıq fikri ilə verilmiş xeyirxahanə sorğu deyildir. Bilirsiniz ki, hökumətin həftədə 5-6 iclası olur, gecə saat ikiyədək otururuz, lakin bu neçə vaxtda iş o qədər olmuşdur ki, sıradakı məsələlərə keçmək mümkün olmamışdır. Xarici siyasət o qədər hücum edir ki, bu halda mümkündürmü hökumət gedib sənin bezlərini ölçsün? Azərbaycanın başına bir bəla gələrsə, onda bez nəyə gərək, çit və neft nəyə gərək olar?

Gərək öylə etməyəsiniz ki, hökumətin səbr kasası dolsun. Böylə olsa, Azərbaycan üçün çox xətalar çıxar. Hökumət dəyişməklə bir qarışıqlıq çıxarsa, onda bütün millətə deyirəm: qoy millətin günahı və xətanın məsuliyyəti tamamilə hökuməti yıxanların öhdəsinə düşsün. Qabaqda bu məsələ ayrı cür idi, şimdi dil bir az dəyişibdir. Dün hökumətə hamı bir təpik vururdu. Eybi yoxdur, bu da keçər. Sanki bizə bir savab, mərhəmət etmişlər, öylə bil biz öz kefimizlə buraya gəlmişik. Sanki bizə deyirlər bu dəfə təqsirinizdən keçib sizi dəyişməyiriz, gələn səfər belə qələt etsəniz görərsiniz nə edərik!

Aya, bu olar? Aya, hökumətlə bu dillərlə danışarlar? Mənim qulağıma yetişdiyinə görə Parlaman üzvlərindən birisi digərinə deyibdir ki, hətta Biçeraxov və Denikin köməyi ilə də olsa bu hökuməti yıxacağam. (Mərkəzdən və soldan: Eyib olsun, eyib olsun!) Lazım gəlsə o adamın adını da deyə bilərəm. Aya, bilirsiniz, Biçeraxov kimdir, Denikin kimdir? Bunlar o adamlardır ki, Azərbaycanın adını da çəkməyə qoymazlar. Aya, hökumətlə süpürüşmək istəyən bu cür adamlar Parlamanda otura bilərmi? Xayır! *(Mərkəzdən, soldan alqış)* Hökumətlə Parlaman arasında qeylüqal çıxarmaq vaxtı deyil.

Möhtərəm məbuslar! Fikirləşin, bu məqam nə məqamdır, bu məsuliyyət nə məsuliyyətdir? Gördüyünüz işləri düşünmək, fikirləşmək lazımdır. Əgər düşünülsə, əminəm bir adam tapılmaz ki, deməsin, bu danışılan dil hökumətlə danışmaq dili deyildir. Böylə qorxulu zamanda dalğalar arasında bulunan qayığımız[ı] bir tövr salamata çıxaraq ki, məqsədlərimizə müvəffəqiyyətlə nail ola biləki! *(Mərkəzdən, soldan alqış)*

Bu nitqdən sonra zeyldəki [aşağıdakı] üç formula (təklif) varid olur [meydana gəlir]:

**Sosialistlərin təklifi**

*"Bizim sənayemizin ən qiymətli məhsulatının alış-verişi və camaat içərisində təqsimi [bölünməsi] barəsində verilən sorğulara hökumətin verdiyi izahatını dinləyib Azərbaycan Məclisi-Məbusanı bu məsələnin əhali və Cümhuriyyət üçün böyük əhəmiyyəti olduğunu və bunun lazımi surətdə qaydaya qoyulmasını qeyd edərək, əhvali-fövqəladədən dolayı məmurların xidmətlərində göstərdikləri sui-istemalları[n] [sui-istifadələrin] və həmçinin möhtəkirlik və əksinqilab hərəkətlərinin şiddətli qanunlarla önünü almaq lazım olduğunu nəzərə alıb qət edir [qərara alır] ki:*

*1. Sui-istemallar və ehtikar [möhtəkirlik] işlərini müəyyən və istintaq etmək üçün bir Fövqəladə Parlaman Komisyonu intixab etməli [seçməli] və;*

*2. Məmurların xidmətlərindəki sui-istemalları, möhtəkirliyi və əksinqilab işlərini mühakimə üçün təşkil ediləcək Ali Tribunalın qanun layihəsini düzəltmək üçün bir komisyon intixab etməli. Və bununla növbədəki məsələlərə keçir."*

**"Müsavat"ın təklifi**

*"1. Vaqe olan sorğuya qarşı hökumətin verdiyi bəyanatı kafi görərək Məclisi-Məbusan növbədəki məsələlərin müzakirəsinə keçir.*

*2. Eyni zamanda məmləkət hasilatının eyi bir surətdə idarəsi və ərzaq işinin müvafiq surətdə idarəsi üçün lazım gələn tədbirləri görmək məqsədi ilə Parlaman komisyonunun təşkilinə lüzum görür."*

**Ağa Aşurovun təklifi**

*"Hökumətin sorğulara olan cavabını eşidərək, Məclisi-Məbusan hökumət rəisinin göstərmiş olduğu tədbirlərin tezliklə görülməsi arzusunu izhar edərək və hökumətin bəyanını kafi görərək növbədəki məsələlərin müzakirəsinə keçir."*

Təkliflər səsə qonulduqda "Müsavat" kəndi təklifinin birinci qismini Aşurovun təklifinə dəyişərək, yarısı Aşurov, yarısı "Müsavat" təklifindən ibarət olmaq üzrə aşağıdakı qərarnamə qəbul edilir:

*"Hökumətin sorğulara olan cavabını eşidərək Məclisi-Məbusan hökumət rəisinin göstərmiş olduğu tədbirlərin tezliklə görülməsi arzusunu izhar edərək və hökumətin bəyanını kafi görərək növbədəki məsələlərə keçir.*

*Eyni zamanda məmləkət hasilatının eyi bir surətdə idarəsi və ərzaq işinin müvafiq bir surətdə idarəsi üçün lazım gələn tədbirləri görmək məqsədi ilə Parlaman komisyonunun təşkilinə lüzum görür."*

## PARLAMANIN 6 FEVRAL İCLASINA DAİR

"İttihad" fraksiyasının bez, neft və ərzaq haqqında hökumətdən etdiyi sorğusu gurultulu bir surətdə üç gün davam etdi. Fevralın 6-sında olan axırkı iclasda hökumətin fəaliyyətsizliyinin isbatı əsnalarında "İttihad" fraksiyası rəisi Qarabəyov cənabları: *"Hökumətin üsuli-idarəsi bu tövr davam edərsə, Azərbaycan dağılar"* dedi. Buna dəlil olaraq Quba qəzasının Dağıstana, Zaqatala vilayətinin də Gürcüstana qoşulmaq arzusunda olduqlarını dərmiyan etdi [meydana atdı]. Qarabəyovdan sonra kürsiyi-xitabətə [xitabət kürsüsünə] çıxan Quba məbusu Qarabəyovun Quba haqqındakı sözlərini tamamilə təkzib etdi. Bundan sonra söyləmək növbəti Zaqatala məbusu Aslan bəy Qardaşov cənablarına yetişdi. Zaqatala haqqında hökumətə rəsmi surətdə məlumat verildiyindən, həm də mövzui-bəhs [mübahisə mövzusu] olan sorğu dairəsindən çıxmamaq qəsdi ilə olsa gərək Qardaşov Zaqatala haqqında bir söz söyləməzdən, sorğu barəsində söyləməyə girişdi. Qardaşov sözünün əsnasında:

– "Müsavat" rəisi Rəsulzadə cənabları dünkü qaynar nitqində *"Hökumətin səhv və xətaları olmaq mümkündür"* deyir. Əcəba nə cür səhv və xətadır ki, uzun bir müddət davam edir? Nə tühəf bir səhvdir ki, Bakı milyonçusuna, İran konsuluna 10 minlərlə verilən bezin bir arşını da olsun möhtacinə [möhtaclara] verilməyir? "Müsavat" fraksiyasının rəisi nə üçün bu kimi şeylərə xəyanət deməyib, səhv adlandırır? – dedi.

Qardaşovun əqəbində [ardından] növbəti olaraq kürsiyi-xitabətə qalxan Rəsulzadə cənabları:

– Zaqatala məbusu Arslan bəy Qardaşov cənabları "Müsavat" fraksiyasının rəisini tənqid edəcəyi yerdə, Quba məbusu kimi Zaqatala[nın] Gürcüstana qoşulmaq arzusunda olduğunu bu müqəddəs minbərdən təkzib etməli idi. Mən cəsarətlə qəyur [qeyrətli] zaqatalalılar namına [adından] bu minbəri-alidən [bu uca minbərdən] elan edirəm ki, zaqatalalılar qətiyyən Gürcüstana qoşulmaq istəməyirlər. "Gürcüstana qoşulmaq arzusundadırlar" sözü zaqatalalıların heysiyyətlərinə toxunar bir yalandır. Zaqatala Azərbaycanın ayrılmaz bir cüzü [hissəsi] olduğu bədihiyyatdandır [açıq-aşkardır]. Bunu hər kəs düşünməlidir. – deyir.

Qardaşov cənabları hər nə qədər sözə izin istədisə də, natiqlər siyahısı bitdiyindən sədr tərəfindən müsaidə edilmədi. Binaənileyh [buna görə], bu haqda mətbuat vasitəsilə bir neçə söz söyləməyi kəndimə borc bilirəm.

Rusiyanın o mənhus istibdadının münhəll olub [əriyib, məhv olub], hürriyyət günəşi tülu edən [çıxan] günlərdən etibarən zaqatalalılar da hər millətin müqəddəratının həlli kəndi qüvvəsi ilə, kəndi əli ilə həll ediləcək vaxtı gəldiyini duydu. Bunun üçün kəndlərimizdə olan Türkiyə zabitlərindən, türk nəfərlərindən [əsgərlərindən] bilistifadə [istifadə edərək] hər kənddə 20-dən 35 yaşına qədər bütün gənclərimiz əsgəri təlimat altına alındı və bunlara tüfəng və fişəng alınıb verilməsi varlılarımıza məcburi qılındı. Hər kənd adətən bir qışla [kazarma] şəklini almışdı. Zaqatala qalasından vətənlərinə ricət etmək [qayıtmaq] istəyən rus əsakirindən [əsgərlərindən] bütün ləvazimati-əsgəriyyəni [hərbi sursatı] qan tökməksizin camaat kəndi ixtiyarına aldı və kəndlərimizdə təlim alan gənclərimizdən 300 nəfəri gətirilib qalaya mühafizəçi qonuldu. Tiflisdən ləvazimati-əsgəriyyə almaq bəhanəsi ilə rəsmi surətdə "Ləzgi alayı" ismində bir alay təşkil edilib, Tiflisdən xeyli ləvazimat da gətirildi. Bir yandan əsgəri təşkilatımız tənzim, digər tərəfdən buların iaşələri ifa və tərtib edilirdi. Kəndlərdən vaqonlarla ərzaq, yüzlərlə ayaqlı mallar ianə təriqi [yolu] ilə hər gün gəlməkdə idi.

Vilayət daxilindəki işlərimiz xeyli nizama salınmışdı. Qafqazın başqa yerlərində anarşiya bütün dəhşəti ilə hökmfərma olduğu [hökm sürdüyü] bir vaxtda bizdə hər nahiyənin əsgəri üç günlük azuqəsi ilə Şeyx Şamil həzrətləri ilə rusların müharibə etdiyi Zaqatala qalası düzünə milli bayraqla manevrə yapmaq üçün gəlirdi.

28 iyunda Azərbaycana ilhaq etdiyimizi [birləşdiyimizi] Baş vəzirə teleqrafla bildirdik. Bakını düşmən əlindən xilas etmək üçün həman günü alayımızı da yola saldıq.

Böylə bir zamanda milli vəzifəmiz, dini hissiyatımız bir alayın kifayət etməyəcəyini zəbani-hal [hal dili] ilə anlatdı. Bakıda hücumda bulunan ordumuzun arxasını təmin, daxili anarşiyanı təskin etmək [yatırmaq] qəsdi ilə bütün cihazıyla [təchizatıyla] bir min (1000) nəfərdən ibarət süvari əsgəri təşkil edildi. Bu atlı əsgərlərin 4 milyondan fəzlə məsarifatını bu gün məhcur edilmiş [yaddan çıxarılmış, tərk edilmiş] yazıq kəndlilər alın təri ilə qazandığı pullardan vermişdilər.

Bunlardan əlavə, qanun üzrə toplanmış əsgərlərimizə də əhali yabançı qalmadı. Cümleyi-mötərizə olaraq onu da ərz edəyim ki, "hər şeyi hökumətdən gözləmək yaramayan bir iş olduğunu, dövlət işində əhalinin də öhdələrinə düşən vəzifələri çox-çox olduğunu" zaqatalalılar artıq düşünmüşlərdir. Bunun üçün də qanun üzrə alınmış əsgərlərinə yabançı qalammazdı.

Bu gün əlli qaryolalıq [yataqlı] bir xəstəxana təsisi üçün Gəncə Bələdiyyə İdarəsinə 450 000 manat, 300 qaryolalıq bir xəstəxana üçün Bakı Şəhəri İdarəsinə 2 200 000 manat dövlət xəzinəsindən borc pul buraxılması hamıya məlumdur.

50 qaryolalıq bir xəstəxana düzəltmək üçün əcəba zaqatalalılar nə yapmışlardır? Onlar da dövlət xəzinəsindən paramı istiqraz etdilər [borc aldılar]? Xeyr. zaqatalalılar bir "Hilali-əhmər [Qırmızı Aypara] cəmiyyəti" təsis edərək açdıqları 50 qaryolalıq "Hilali-əhmər xəstəxanası"nı bu cəmiyyətə ianə təriqi ilə toplanmış paralarla idarə edirlər.

Hal-hazırda Zaqatalada mövcud əsgərlərimizin üst əlbisələrini [paltarlarını] ləzgi şalından həman cəmiyyət tikdirmişdi.

Bu gün Zaqatalaya təşrif aparan zəvat [şəxslər] Zaqatala əsgərlərini başqa bir ruhda, başqa bir şövqdə görəcəkdir. Bunlar da Müsüslü yataqlarında, Bakı ətrafında, Qarabağ dağlarında vətən üçün qan tökən dini, millətini müdafiə yolunda şəhid olan zaqatala[lı] gənclərimizin qardaşlarıdır.

Fövqdə məzkur sifətlərlə müttəsif [yuxarıda deyilən xüsusiyyətləri daşıyan] zaqatalalılar haqqında bu gün Parlamanda qulağım nələr eşidir, kim bilsin daha nələr eşidəcəkdir. Zira Azərbaycana ilhaq olub da bu qədər fədakarlıqda bulunan zaqatalalılara hökumətimiz az da olsun iltifat etməli idi.

Tif və ispanka xəstəliyindən minlərlə binəva kəndlilər əlacsız, dərmansız tələf oldu. Pulsuzluqdan məhsullarını bir yerə çıxarammayırlar. Dün Azərbaycan daxilini və Bakını düşməndən xilas etmək yolunda yeddi-səkkiz milyon sərfiyyatda bulunan və gənclərini qurban verən Zaqatala kəndlilərinin bu gün dərdlərinə, ehtiyaclarına nədənsə baxılmayır, etina edilməyir.

## «AZƏRBAYCAN» qəzetinin 1919-cu il 19 fevral (Çərşənbə günü) tarixli 117-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

Vilayət məhkəməsi sədrinə ayda 400 manat, həman məhkəmənin qapıçısına 550 manat maaş verilməsinin səbəbini düşünəmməyiriz. Vilayət daxilində oğurluq, soyğun, cana suiqəsd kimi cinayətlər adət sırasına keçmişdir. Bu haqda hökumət qapılarına dəfəatla [dəfələrlə] getdik, "Hər işə tez əncam çəkiləcəkdir" sözlərini eşidib əncamların intizarında durmuşuq.

Zaqatalada gürcülər pul ilə propaqanda yapdırdığını Bakıda eşitməyənimiz yoxdur, fəqət bu haqda nə kimi tədbirlər görüldü?

Möhtərəm Məhəmməd Əmin həzrətləri! Milliyyət, qövmiyyət məğzlərini kamalınca düşünən və anlayan zaqatalalılar, min dürlü propaqandalar olsa da, milyardlar təklif edilsə də, son nəfəslərinə qədər Gürcüstana qətiyyən qoşulmayacaqlarını təbşir etməklə [muştuluqlamaqla] bərabər, Parlaman minbərindən Zaqatala haqqında silsiləli cümleyi-müshəfələrin iradı ilə [uzun və qəliz cümlələr söyləməklə] kifayətdə bulunmağınız müqtəzayi-hala [zamanın tələblərinə] bir o qədər mütabiq olmasın gərək zənn edirəm. Çünki fədakarlığı ilə mərufunuz olan [tanıdığınız] zaqatalalılar haqqında füccətən [birdən-birə] "Zaqatala Gürcüstana qoşulmaq arzusundadır" sözünü eşitdiyinizdə, Zaqatala məbuslarına bunun təkzibini təklif edəcək yerdə, həman məbuslardan məzkur [deyilən] cümlənin nədən və nə üçün nəşət etdiyini [meydana çıxdığını] sorsanız, məqsədinizə daha yaxınlaşmış olardınız.

10 yanvardakı xüsusi müsahibəmiz xatirinizdədir, zənn edirəm.

Yoxsa Zaqatala haqqında gürcülərə, məlumunuz olan cavabı yazan və Zaqatala Azərbaycanın layənfək [ayrılmaz] bir cüzü olmasına çalışan bir ovuc zaqatalalılar Gürcüstana qoşulmaq arzusundadır cümləsini təkzib etməkdən başqa, "Sayeyi-şahanədə [Hökmdarın sayəsində, kölgəsində] asayiş bərkamaldır" sözünü əlavə olaraq söyləməyə qadir olardı[nız].

Möhtərəm bəyim! Azərbaycan istiqlaliyyətinin, Azərbaycan Cümhuriyyətinin həqiqi aşiqisiniz. Vaqeən buna imanım bərkamaldır və Zaqatala Azərbaycanın bir cüzi-layənfəkliyində əbədi olaraq qalmasını görmək istəyirsəniz, zaqatalalıların dərd və ehtiyaclarını nəzəriyyatla deyil, əməli surətdə gördürməyə var qüvvənizlə çalışmalısınız.

Artıq bu qədər əfəndim.

*Zaqatala məbusu:*
*Bayram Niyazi [Kiçikxanov]*

### DABRAVOLLARIN BUGÜNKÜ KÖMƏKÇİLƏRİ

İngilis komandası paytaxtımıza daxil olduğu əsnada, bunun ardınca şəhərimizə bir çox güruhlar daxil olmuşlardır. Bunlar kol dibindən qaçan arvad-uşaqlarını ayaqlar altında tapdalayıb, öz canlarını həlakətdən [ölümdən] qurtarmağa çalışan "igidlərdir" ki, ciblərində pul, kisələrində çörək, camədanlarında [çamadanlarında] faxir [bahalı] libas və əllərində də tüfəng özlərini güc-bəla ilə paraxodlara atıb, Kaspi dənizinin hər cəhətinə, düşməndən qorxusuz yerlərə qaçdılar. Qaçıb da öz nəfslərini ölümdən qurtardılar. Zor və cəbrlə yetimlərin əllərindən aldıqları zəxirəni [ərzağı] kamali-asudəliklə yeyərək, Lənkərandakı əlsiz və ayaqsızlara köhnə "igidliklərini" göstərməyə qurşandılar. Bakıda başlı-başına buraxılmış və ac-susuz qalmış dul arvadların, yetim uşaqların, əlil qocaların ah və nalələri bir kənara öz nəfslərini qaçırtmış "əli tüfənglilərin" ürəklərini əsla incitmədi. Girvənkəsi 20 manata çörək yeyənlərin fəqanları, bunların qulaqlarına çatmadı.

Bunlar kim idi?

Bunlar – Andranik və Amazasp kimi bir saatda və bəlkə bir dəqiqədə daşnak boyaqxana küplərində general boyağı ilə boyanmış dığaların tərəfdarları idi ki, bunların xasiyyətləri müsəlləh [silahlı] qüvvə qarşısından qaçmaq və əslihəsiz [silahsız], köməksiz biçarələri də qırmaqdır. Bunun sübuta ehtiyacı yoxdur.

Bakının Mart hadisatı [hadisələri], Şamaxının qətliamı, Qarabağ və Naxçıvan tarümarı və daha nələr nələr... Bunlar kimi yüzlərcə daşnak fəsadının hangi birini söyləyim? Bunların rəşadəti mərdanəliklə deyil, bəlkə hiylə, saxta və riyakarlıq kimi insaniyyətə yaxışmayan hərəkətlərlə aralığa atılmaq, güclülərin meydanından qaçmaq, gücsüzlərin qanını içmək onların tarixi bir sifətləridir ki, boyunlarındaki xaçla bərabər həman sifətləri də daşıyırlar.

Bunlar nə istəyirlər?

Yek kəlmə: Qafqaz qitəsinin tamamına ağa və sahib olmaq. Gürcüstanın Tiflisi, Azərbaycanın Bakısı daşnakların əli ilə bunların tapdağı olmuşdu. İnqilab gəldi, hər kəs malına sahib durdu, özgə şəhərlərində ağalıq edən daşnakları Tiflisdən və Bakıdan Ararat dağına qədər qavdılar. Lakin bu bihəyalar, üzlərindəki maskanı dəyişib, bu dəfə ayrı bir üsul ilə işə girdilər. Ayıq gürcülər bunların ənvai [cürbəcür] hiylələrinə aldanmadılar. Açıq müharibədən başqa daşnakların çarələri qalmadı. Odur ki, xüsusi bir bəhanə ilə Tiflisi dərdəst etmək [ələ keçirmək] üçün Sanain yolundan soxuldular, atışdılar, vuruşdular, Tiflisi ala bilmədilər. Qəyur [qeyrətli] və rəşid [rəşadətli] gürcülər bunları qarşılayıb yenə öz yuvalarına qaytardılar. Daşnaklar susdular. Gürcüstan ətrafında riyakarlığa, gürcüləri iğfal etməyə [aldatmağa] qurşandılar. Bir ay çəkmədi ki, Soçi ətrafında rusların dabravol [könüllü] dəstəsinə qoşularaq meydana yenə bir fitnə dağarcığı atdılar. Şükürlər olsun ki, bu dəfə də daşnak fəsadı alovlanmadı.

Görək bundan sonra daşnak güruhu sakit dayanacaqlarmı? Yəqin ki dayanmayacaqlar. Çünki fitnəçilik bunların qədim bir peşələridir. Amma bunu bilməlidirlər ki, bundan sonra nə qədər hiylə və dami-təzvir [tələ] qursalar, həqqaniyyət toxmağı öz başlarında çatlayacaqdır. Tiflisi daha bir də Xatisovlar görə bilməzlər. Bəlkə gürcü milləti tamamən qırılıb qurtara, bəlkə Kür çayı üzü yuxarı axa ki, bir də ermənilər Gürcüstanın paytaxtına malik ola bilsinlər. Heyhat!

İndi öz paytaxtımız Bakının tarixinə keçək. Rus qoşunu Qafqaz qitəsini tərk edib evlərinə qayıdırdı. Yəni, inqilabın zəlzələsi Daşkovların Tiflisdəki bargahi-kəsralarını [padşah saraylarını] dağıdıb xarabalara döndərməkdə idi. Ehtimal ki, bu bargahların [sarayların] təpələrindən Qafqaz millətlərinə hökmranlıq etmiş Xatisovlar vaxtında qoyub qaçmasaydılar, yəqin ki, bunların xarabaları altında basdırılıb qalardılar. Daşnaklar Tiflisi məcburən əldən buraxaraq məyus qalıb Qafqazın sair mərkəzlərinə mütəvəccih oldular [üz tutdular]. Tiflisdə itirdikləri nüfuzu Bakıda qazanmaq, Azərbaycanın paytaxtına malik olmaq istədilər. Demokrat maskasını geyib, o vaxtdakı inqilab cərəyanlarına qoşuldular. Ümurisiyasiyyənin [siyasi işlərin, idarənin] bolşeviklər əlinə düşəcəyini duyaraq hamısı dərhal bolşevik dəstəsinə maraqlandılar. Daşnakların bolşeviklər kimi füqərayi-kasibənin mənafeyinə çalışan və demokrat əsası ilə işləyən bir partiya olduğunu qırmızı yalanları ilə isbat etdilər. Bakıdakı minlərcə rus füqərasının meylini özlərinə rağibləndirdilər. Odur ki, erməni qanı və daşnak xəmirəsi [mayası] ilə yoğrulmuş zalım Şaumyan Bakıdakı tamam bolşeviklərin sərkərdəsi və dəstəbaşısı intixab olundu [seçildi]. Dildə bolşevik, ürəkdə daşnak fikirli Şaumyan bu iki firqənin arasında qardaşlıq siğəsini oxuyub ikisindən bir fövc [kütlə], bir qaragüruh yapdı. Bundan sonra Bakı ermənilərinin qocası, cavanı hətta gimnaziya şagirdlərinə qədər hamısı bolşevik dəstələrinə könüllü əsgər sifəti ilə daxil oldular. Cəbhədən qaçıb Bakıda və mədənlərdə gizlənmiş minlərcə erməni fərariləri kamali-məmnuniyyətlə boşlevik dəstələrinə böyükcə məvaciblərlə qəbul olunurdu. Bolşevik nüfuzu getdikcə erməni vasitəsi ilə kəsbi-şiddət edirdi [artırdı]. Müəssisələrdə ermənilər, milis və polis əfradı [nəfərləri] ermənilər, əsgər və zabitlər ermənilərdən qoyulduğu cəhətə, Bakı şəhəri zahirən daha erməni şəhərinə oxşayırdı. Şaumyan Bakını udulmuş loxmalardan hesab edərək azərbaycanlılara qurduğu duzaqların [tələlərin] üstünü pərdələmək üçün ilanın quyruğunu hələ tapdalamaq istəmədi. Onun təsəvvürüncə, ermənilərin Tiflisdə itirdikləri nüfuzu yenə sabiqki qərar üzrə özlərinə qaytarılmazsa, Bakıda qazanıldığı etibara da ümid bağlamaq olmaz. Odur ki, demokrat amalı ilə və bolşevik bayrağı altında özünü bir dəfə Tiflisə atdı. Lakin gürcü demokratları bunun ürəyindəki məsləki çoxdan duymuşdular. Hökümət Şaumyanın Tiflisə vürudunu [gəlməsini] xəbər alar-almaz, onun dərdəst olunmasına [ələ keçirilməsinə] çalışır. Avlabar erməniləri Şaumyanı aralarında gizlətməsəydilər, yəqin ki, gürcülər onu tutub xırpalayacaqdılar [əzişdirəcəkdilər].

Şaumyan bir müddət Tiflisdə gizləndi, məqsədinə nail ola bilmədi. Cəbhədən qayıdan rus eşelonlarına qoşularaq yenə Bakıya qayıtdı. Bu dəfə gürcülərin acığını türklərdən almaq istədi. Odur ki, Yevlax istasyonuna çatar-çatmaz bunun təhriki ilə rus saldatları Yevlaxdakı biçarə əhli-kasəbəni [zəhmətkeş xalqı] gülləbaran etdilər. Qətl olunmuş füqəranın həddi-hesabı yox idi. Yevlax körpüsünün üstündən salamat keçərək Qarxun qəryəsini [kəndini] topa, atəşə tutdular. Bu həman Qarxun kəndidir ki, Yevlax körpüsünün xidmətçiləri qoyub qaçdıqları bir halda qarxunlular əllərində tüfəng, gecə-gündüz məccanən [qarşılıqsız] həman körpünün qarovulunu çəkmişdilər. Qarxunlular olmasaydı, Yevlax körpüsünü bədəfkarlar [terroristlər] çoxdan dağıdıb, rus saldatlarının da evə qayıtmaq məsələsinə böyük xələl [ziyan] yetirə bilərdilər. Bakının bugünkü bol azuqələri həman körpünün davamı sayəsindədir ki, bunun müqabilində izhari-təşəkkür əvəzinə biçarə Qarxun camaatı şaumyanların işarəsi ilə atəşə tutuldu.

Rus cəbhəxanalarına top-tüfəngləri, pulemyotla bərabər tamamən sahib duran şaumyanlar Şəmkir macərasını fitnə sərlövhəsi ittixaz edərək [sayaraq], rus saldatları ilə müsəlmanların arasına ədavət tumu saçırdılar. İş bu məqama gəldi ki, Parapetlərdə rus arvadları, saldatları intiqama dəvət edirdilər. Bunun nəticəsi olaraq Mart hadisati-əliməsi [faciəli Mart hadisələri] ortalığa atıldı. Quzu dərisinə girmiş qurdlar Şaumyan və Lalayan təhti-komandası ilə [komandası altında] daşnak canavarları tamam vəhşi və yırtıcı bir firqə olduqlarını hərəkati-vəhşiyanələri [vəhşicə hərəkətləri] ilə tamam aləmə bildirdilər. Əlil qocaları, xəstə arvadları, məzlum çocuqları qılıncdan keçirdilər. Xanimanlar yandırıldı. Hər kəsin evində, cibində nəyi vardısa, zorən alındı. Mallar qarət, canlar da güllələrə hədəf olundu. Bakı və Abşeron ətrafında müsəlmanların qiyaməti qopdu. Yetimlərin fəryadı, məzlumların şikayəti şaumyanların qulağına girmədi. Tamam 6 ay Bakı ətrafında müsəlmanların nahaq qanı töküldü. Halal malları əllərindən alındı. Erməni qarətçiləri, saldatları milyonçu oldular. Ayağı çarıqlı dilənçilərin ciblərindən yüz minlərcə Nikolay pulu çıxırdı.

Avtomobillərdə keyflər yapılırdı. Şampanskilər sel kimi axırdı ki, bu halda Azərbaycanın qəyur cavanları türklərlə bərabər məzlum qardaşlarının imdadına çatdılar. Əhvalın təhlükəli olduğunu duymuş daşnaklar yüz min milyonlarca müsəlman əhlindən aldıqları pul və cəvahiratı paraxodlara yığıb səhih və salimcə [sağ-salamat] qaçıb qurtula bildilər. Bir müddət orada-burada daldalandılar. Axırda "qoçaq pəhləvanlar" ingilislərin ardınca yenə Bakıya qayıtdılar, müsəlmanlardan aldıqları qarətləri gizlədib bərəks [əksinə] türklərin hücumu əsnasında özlərinin zərər və ziyana düçar olduqlarını iddia etdilər. Həqiqəti birə-on, birə-yüz artıraraq yüz min milyonların siyahılarını ingilis komandasına təqdim etdilər. Sentyabr zərərdidələrinə [zərərçəkənlərinə] ümid verildiyi halda, mart zərərdidələrinə heç məhəl qoyan da olmadı. Böylə neyçün? Məgər müsəlmanların şikayətini dinləyən bir məmur, bir məkan tapılmadı? Zənnimcə müsəlmanlar haqlarını müdafiəyə qaxışmadılar. Halbuki müsəlmanların ziyanları ermənilərinkindən birə-on, birə-yüz qat artıq idi. Böylə olan surətdə bu insafdan kənar bir işdir ki, cüzi bir zərər sahibinin halına yanılsın, külli zərər sahibinin əhvalı isə heç də nəzərə alınmasın. Böylə bir ədalətsizliyə daşnaklar heyfa ki [təəssüf ki], nail oldular. Nail olub da cürətləndilər, sair fasid [araqarışdıran] məramlarına əl qatdılar.

Bunların axırkı fitnələri Dabravol dəstələri ilə aralığa bir pozğunluq salmaqdır. Gürcüstanda məramlarına nail olmadılar. Azərbaycanda da laşəkk və laşübhə [şəksiz-şübhəsiz] nail olmayacaqlar. Bu həmən Azərbaycan türkləridir ki, Gəncə, Qarabağ, Qazax, Zaqatala, Şəki ətrafından minlərcə gəlib paytaxtını düşmən əlindən rəşidanə [rəşadətli] bir surətdə geri aldılar. Hökumətlərini, Parlamanlarını təsis etdilər, yerlərinə qayıtdılar. Yenə vətən uğrunda fədakarlıq lazım olarsa, yüz minlərcə Bakının nicatına gələcəklər. Bunu daşnaklar düşünsünlər ki, Azərbaycan Hökuməti Bakıda qoşun saxlamayırsa, məhz ingilis komandasının verdiyi yəminlərinə [andlarına, vədlərinə] istinad edir. Lazım olduğu halda qoşun da gələcəkdir. Burası təəccübdür ki, Qarabağdakı "zərgər Amazasp" bu gün "general Amazasp" ləqəbi ilə şöhrət tapmışdır. Andranik kimi quldura, Amazasp kimi zərgərə ingilis komandası qapıları, yəqin ki, açılmayacaqdır. Lakin böylə səfillər başlı-başına buraxılarsa, Şaumyan kimi asayişə xələl qatıb yenə bir fəsad törədə bilərlər. Bunu ingilis komandası bir an əvvəl bilib də, böylələrini şəhərdən kənara çıxarmalıdır. Hürriyyətimizdən istifadə edən bir çox əşqiya güruhu [quldur dəstəsi] bu gün bolşevik olar, sabah dabravol olar, o biri gün üçüncü bir dona girəcək, məqamı gəldikcə nizamı, asayişi pozacaqdır. Əcəba, ingilis komandası böylə əhəmiyyətli məsələni etinasızcamı buraxacaqdır?

Hər divar dibindən qaçmışlar Bakıya təşrif gətirmişdir. Bunların başburtlarına [pasportlarına] baxılsın, məşğuliyyətsiz gəzənləri vilayətlərinə qaytarsınlar.

Bu nə Dabravol dəstəsidir ki, paytaxtın küçələrində gəzirlər? Bir çox oğurluqda tutulmuş Biçeraxov kazakları qoyub getdilər, əvəzində Prjevalski dəstəsi ixtira olundu. Bunun qarşımıza bəslədiyi məqsədi əcəba nədən ibarətdir? Bunların hərəkatından əhali həyəcana gəlir. Yenə azuqə azalır, ərzaq gətirilməyir, qiymətlər qalxır. Yenə zabastovkalar [tətillər], yenə tətillər başlayacaqsa, füqəranın işi daha müşkülə düşəcəkdir. Xülasə, əhalinin əmin-amanlığına çalışan ingilislər Dabravol məsələsinə xitam verməlidirlər. Daşnakların riyakarlığı onları iğfal etməsin [aldatmasın], sonra peşmanlıq çəkərlər. Lənkəran məsələsinə baxılsın, ədalətlə həll olunsun. Muğanlıların qanını şişəyə tutan [muğanlıların qanını içən, onlara çox zülmlər edən] rus atryadı [dəstəsi] oradan qovulsun. Daşnaklar bilsinlər ki, Kür çayı üzü yuxarı axar, amma Bakını Azərbaycandan ayırmaq heç bir vəchlə mümkün olmaz. İndi özləri bilsin!

*F. A.*

### MƏTBUAT

Son zamanlar siyasət dairəsində mühüm mövqelər tutan bir çox zəvat [şəxslər] "Müsavat" firqəsindən [partiyasından] çıxmışdır. Məzkur [adı çəkilən] firqənin türkcə "İstiqlal" qəzetəsi firqədən çıxanların kim olduğunu və nə üçün çıxdıqlarını bəyanla yazır ki:

*"Sultanovlar, Cavanşirlər və digərləri firqədən gedərkən kəndiləri ilə bir qisim xalqı, müəyyən bir sinif və məslək əhlini təmsil edirlər. Vahid Rusiya və Zaqafqaziya siyasət keşməkeşlərində firqə proqramı bu adamlar üçün milli bir ideal ikən, şimdi bunlar Azərbaycan istiqlalı bir fəaliyyət almağa başlarkən, artıq "Müsavat"dakı yerlərini həm soyuq, həm də tikanlı görməyə başlamışlardı. Çünki, firqənin xarici proqramını qurtarıb yavaş-yavaş daxili proqramı tətbiq edilmək lazım gəlirdi. Xalqın haqqını tanımaq sırası idi. Sözdə deyil, işdə tanımaq vaxtı gəlmişdi. Ona görə bunlar firqədən fərar edirlər. Çünki onlara bir qəlib, yalnız bir zahir lazım idi. Halbuki, "Müsavat"ın ruhunu dərk etmiş olan firqəçilərə yalnız qəlib deyil, ruh dəxi lazım idi.*

*Biz istiqlalı, muxtariyyəti, millətin hürriyyətini, yalnız bir ad üçün və yaxud qüvvət sahiblərini məsud qılmaq üçün istəməyirdik. Bizim məqsudumuz türk demokratiyasının xilası, Azərbaycan xalqının hürriyyəti idi. Bizim üçün proqramımızın bütün maddələri bir dərəcədə əziz və müqəddəs idi.*

*Biz xalq firqəsi olduğumuza, mənzili-məqsuda [hədəfə, niyyətdə tutulan məqsədə] dəxi həqiqi xalqçılarla bərabər olaraq gedəcəyimizə hər zaman inanmışız. Bu imanımız hər zaman bizə rəhbər olmuş. Bu rəhbərlik sayəsindədir ki, türk demokratiyası "Müsavat"ı bir dost kimi tələqqi [qəbul] etmişdir.*

*Bizdən gedirlər onlar ki, demokratiya ilə yaxın bir dostluqda bulunmaq təbiətlərinə uymaz. Bizdən gedirlər onlar ki, səflərimizdə bulunmaları firqəyə "xan və bəy firqəsi" dedirtməyə səbəb təşkil edirdi.*

*Mühafizəkar burjua ilə mürtəce feodallar, "Müsavat" radikalizmi ilə demokratizmini əlbəttə ki, çəkəmməzlərdi. Onlar ya gərək firqəni özlərinə çəkəydilər, yainki firqədən gedəydilər. Təbiidir ki, ikinciyə nail olacaqlardı; oldular."*

### TELEQRAF XƏBƏRLƏRİ

**Almaniyada əsgərlər tərxisi**

"Royter" acentəliyinə xəbər verirlər ki, Almaniya əsgərləri tərxis edilmişlərdir. Ancaq şərq cəbhəsində üç yüz min əsgər qalmışdır. Təcrübəli saldatlardan üç yüz min nəfərdən ibarət könüllü ordu təşkil edilməkdədir.

**İngilis kralının nitqi**

Parlamanın rəsmi-güşadı [açılış mərasimi] münasibətilə İngilis kralı Gevorq bir nitq irad edərək İngiltərənin azad müstəmləkələrinin və Hindistanın bu dava zamanında ümumi işdən ötrü göstərdikləri fədakarlıqları, canfəşanlıqları təqdir eyləmişdir. O, ümidvar olur ki, Hindistan məşrutəsi [konstitusiyası] layihəsinə baxan komitənin dakladı [məruzəsi] bu yaxınlarda Parlamana idxal ediləcək və bundan sonra da qanun tərtib veriləcəkdir. Kral hər iki kameraya təklif eyləmişdir ki, bu günün təhəmmül qəbul etməz [dözülməz] məsələləri olan bir çox ictimai və iqtisadi məsələlər əcələtən [təcili] həll edilsin. Buna görə də Parlamana təklif ediləcəkdir ki, məsələ təxirə düşməməkdən ötrü bu məsələlərin təhrirat [rəsmiyyət] işi tezliklə qurtarsın.

- İngiltərənin muxtariyyətli müstəmləkələrinin Cəmiyyəti-Əqvama [Millətlər Cəmiyyətinə] daxil olmaq barəsindəki iddialarına Sülh Konfransı baxacaqdır. Bunlar azad olan millətlər sifəti ilə Cəmiyyəti-Əqvama buraxılmalarını xahiş edəcəklərdir. Hindistan və bu kimi muxtariyyətli müstəmləkələr daxili ümuri-idarələrində [işlərində] sərbəst olmalıdırlar. İngiltərə isə onun yalnız xarici siyasətlərini təftiş edə biləcəkdir. Kanada, Avstraliya, Yeni Zellanda, Cənubi Afrika tələb edirlər ki, Belçika və sair ikinci dərəcədə olan millətlər kimi bunlar da Cəmiyyəti-Əqvama buraxılsınlar.

**Axıska və Azğurun süqutu**

Mövsuq mənabedən [mötəbər mənbələrdən] erməni "Naşe vremya" qəzetəsinə xəbər verirlər ki, Axıska cəbhəsində acaralılar gürcü qoşunlarına böyük bir zərbə endirib onları qova-qova Axıskanı və Azğuru işğal etmişlərdir. Gürcü qoşunları içində, qəzetənin yazdığına görə, pozğunluq varmış və özləri də cəbhədən qaçırmışlar. Vəziyyət çox ciddi olduğundan Jordaniya cəbhəyə getmişdir.

### BAKI XƏBƏRLƏRİ

**Fəhlə həyatından**

Pəncşənbə [cümə axşamı] günü fevralın 20-sində, axşam saat 4-də Binəqədidə "Narodnı dom"da [Xalq evində] Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə əhvali-hazirəyə [hazırkı vəziyyətə] dair mühazirə oxuyacaqdır. Ümum fəhlə və kəndlilərin mühazirəyə gəlmələri rica olunur.

* Şənbə günü fevralın 22-sində Tağıyev fabrikasında teatro binasında Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat" tərəfindən Piri Mürsəlzadə cənabları "Qafqaziya millətləri və Könüllü ordu" mövzusunda mühazirə (leksiya) oxuyacaqdır. Ümum fəhlə və kəndlilərin mühazirəyə gəlmələri rica olunur. Mühazirə axşam saat 4 tamamda başlanacaqdır.

**Şayiat**

Şəhərdə ciddi surətdə şayiələr dəvəran edir [gəzir] ki, guya Zakaspi nahiyəsində Mərv şəhəri ətrafında bolşeviklər, ingilis və menşevik qoşunlarına yenidən böyük zərbə endirmişlər və guya bu münasibətlə ingilislər Mərv şəhərini təxliyə edib, Aşqabada tərəf geri çəkilmişlərdir.

**Salarüddövlənin həbsi ətrafında**

Bakıdakı İran şəhbəndərliyinə [konsulluğuna] yaxın olan bir zat [şəxs] mühərririmizə söyləmişdir ki, sabiq İran şahı Məhəmmədəlinin qardaşı Salarüddövlənin həbsi İran dövləti və Bakı konsulunun təklifi ilə İngiltərə komandanlığı tərəfindən icra edilmişdir. Həman zatın dediyinə görə, Salarüddövlə İstanbuldan gəlib Astrabada gedərkən Krasnovodsk şəhərində dərdəst edilmiş [tutulmuş] və Bakı həbsxanasına göndərilmiş. Mumaileyhin [onun] həbs edilməsinə səbəb, yenidən İrana keçib türkmanlar vasitəsilə ixtilal və irtica qaldırmaq məqsədi olmuşdur.

**Diş həkimi İ. S. Tarşteynbaum**

Dişlərə müalicə edir, ağrısız çıxarır, sadə və qızıl süni dişlər qayırır. Sisyanovski küçədə 41 nömrəli evdə (Çadrovı küçənin küncündə, Quba meydanı yanında).

*2669*

**Arvad diş həkimi M. S. İdaşkina**

Naxoşları qəbul edir səhər saat 9-dan axşam saat 6-ya kimi. Ünvan: Nikolayevski küçədə 25 nömrəli evdə. Telefon 32-41.

*2629*

**Mama Gövhər xanım**

Hər gün naxoşları qəbul edir saat 9-dan 12-yə qədər. Adres: Armyanski küçədə, 13 nömrəli evdə, 1-ci mərtəbə. (Bu yaxınlarda orada xüsusi təvəllüdxana [doğum evi] açılacaqdır.)

*2695*

**Doktor Musa bəy Rəfiyev**

Daxili əmraza [xəstəliklərə] düçar olan naxoşları qəbul etməyə başlamışdır. Səhər saat 9-11-ə kimi. Axşam saat 5-7-yə kimi. Ünvan: Armyanski, nömrə 15. Telefon 16-80.

*b-37*

**Doktor Samuil İzrailoviç Kopelioviç**

Daxili və əsəbi mərəzə mübtəla olanları hər gün axşam saat 5-dən 8-ə kimi qəbul edir. "914" dəvasını [dərmanını] istemal edir [işlədir]. Voronsovski caddədə nömrə 17, ikinci mərtəbə. Telefon 50-82 və 93.

**Diş həkimi S. M. Hamburq**

Nikolayevski küçədə nömrə 29, Parlaman qarşısında. Telefon 5-96.

Dişlərə və ağıza müalicə edir. Kauçuk və qızıl üzərində süni dişlər qayırır. Dişləri və tükləri ağrısız çıxarır. Qızıl iş işləyir. Qəbul edir səhər saat 9-dan 2-yə kimi; axşam saat 4-dən 7-yə kimi.

**Petroqraddan gəlmiş doktor**
**İshaq Avetisoviç Atayans**
**(professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul etməyə başlamışdır. (Bövl [idrar] yolu azarını, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu ayna ilə müayinə edir. Hər gün axşam saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir. Ünvan: Telefonnı küçədə 6 nömrəli evdə, mənzil nömrə 3. Telefon 20-90.

*2663*

**Arvad diş həkimi Platonova**

Mamalıq, qadın və əmrazi-daxiliyyəyə [daxili xəstəiklərə] mübtəla olanları qəbul edir hər gün səhər saat 8-dən 10-a kimi, axşam saat 4-dən 7-yə kimi.

Telefon nömrə: 50-06. Adres: Kolyubakinski küçədə Parapetin küncündə ev nömrə 26.

*2664*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişin yaxşı qayırılması təmin olunur. Kənardan gələnlər üçün iş tezliklə görülür. Qiymətlər münasibdir. Qəbul olunur 9 - 2-yə və axşam 4 - 7-yə kimi. Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*215*

Baytariyyə həkimi və Tibbi fakültənin 2-nci kursunun müdavimlərindən **A. A. Ter-Bağdasarov** xırda heyvanları səhər saat 4-dən axşamadək, iri heyvanlara isə mal sahibinin evində baxır və cavan heyvanlara qiymət qoyur. Unvan: Karantinni küçədə nömrə 100. Telefon nömrəsi 43-08.

*2681*

**Doktor Ağahüseyn Kazımov**

Qayıdıb əmrazı-daxiliyyəyə [daxili xəstəliklərə] mübtəla olan naxoşları qəbul etməyə şüru etmişdir [başlamışdır]: səhər saat 10-dan 12-yə kimi; axşam saat 4-dən 6-ya kimi. Ünvan: Parapetdə, Şəfi İbrahimovun evində 3-cü mərtəbədə. Telefon: 86-27.

*2655*

**Doktor Larionovun**
**cərrahiyyə və arvad xəstəxanası**

(Bazarnı və Qubernski küçələrinin küncündə) naxoşlar qəbulunu təzələmiş: 1) Xəstəxanada yatmaq ehtiyacı olanlar həməvəqt [həmişə]; 2) Gələn xəstələr səhər saat 9-dan gündüz saat 4-ə qədər.

Xəstəxananın həkimləri: Arvad xəstəliklərindən: doktor V. Q. Mitrofanov. Cərrahi xəstəliklərindən: doktor A. İ. Okinşeviç, doktor Mir Əsədulla Mirqasımov.

*2683*

**Bakı İkinci İstiqrazi-Mütəqabilə Cəmiyyəti**

Bununla öz üzvlərinə elam edir [bildirir] ki, Cəmiyyətin növbəti iclasi-ümumisi [ümumi iclası] bazar günü mart ayının 2-si səhər saat 10-da təyin edilmişdir. İclas bankın binasında (Mixaylovski və Baryatinski küçələrin küncündə Dadaşovun mülkündə) vaqe olacaqdır.

Müzakirə ediləcək məsələlər:

1) Cəmiyyət işləri haqqında şura, idarə və təftiş komissiyasının məruzəsi.
2) 1918-ci il məhsubatının [hesabatının] müzakirə və təsdiqi.
3) 1919-cu il smetasının müzakirə və təsdiqi.
4) Növbətə görə çıxmış olan idarə üzvü Əlibala Əliyevin Şura üzvü intixabı [seçilməsi].
5) Növbətə görə çıxmış olan Şura əzası [üzvü] Hüseynov və vəfat etmiş Popovun yerlərinə yenidən beş nəfər Şura əzası intixabı.
6) Təftiş komissiyasına üç üzv və üç namizəd seçilməsi.

*2694*

***Müvəqqəti müdir:***
***Hacıbəyli Üzeyir bəy***

## TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

***İnna lillahi və inna ileyhi raciun***

"Starı poçtovı": Bakıda, indiki Süleyman Tağızadə küçəsi.

***Qismi-rəsmi: Qubernatorun əmri***

"Nikolayevski": Bakıda, indiki İstiqlaliyyət küçəsi.

"Velikoknyajeski": Bakıda, indiki Məhəmməd Əmin Rəsulzadə küçəsi.

***Parlamanın 6 fevral iclasına dair***

"ləzgi şalı": toxunma şal parça növü.

***Dabravolların bugünkü köməkçiləri***

"Tiflisi bir də Xatisovlar görə bilməzlər.": 1918-1920-ci illərdə Ermənistan Respublikasının Səhiyyə, Daxili İşlər, Xarici İşlər naziri kimi yüksək vəzifələr tutan, habelə bir ilə yaxın müddətdə Baş nazir olan Aleksandr İvanoviç Xatisov nəzərdə tutulur. Xatisov Tiflisdə anadan olmuş, Tiflis Şəhər Dumasının üzvü, 1910-1917-ci illərdə Tiflis şəhərinin bələdiyyə başçısı vəzifələrini tutmuşdur.

"Yəni, inqilabın zəlzələsi Daşkovların Tiflisdəki bargahi-kisralarını dağıdıb xarabalara döndərməkdə idi.": Daşkovlar deyərkən 1905-1915-ci illərdə Qafqazın canişini olan İllarion İvanoviç Vorontsov-Daşkov nəzərdə tutulur. "Kisra" Sasani hökmdarı Xosrovun adından əmələ gəlmiş, Sasani hökmdarları haqqında, eləcə də ümumiyyətlə "hökmdar" mənasında işlədilmişdir.

Avlabar (yaxud Avlabari): Tiflis şəhərinin ən qədim rayonlarından biri.

"Qarxun qəryəsi": Azərbaycanda eyniadlı bir neçə kənd mövcuddur. Burada adı çəkilən isə hal-hazırda Yevlax rayonu ərazisindəki Yuxarı Qarxun kəndidir.

"general Amazasp": Hamazasp Srvandzyan nəzərdə tutulur.

"F. A.": bu imza Fərhad Ağazadəyə məxsusdur.

***Mətbuat***

"Sultanovlar, Cavanşirlər və digərləri firqədən gedərkən…": Xosrov bəy Sultanov, Behbud xan Cavanşir nəzərdə tutulur.

***Teleqraf xəbərləri***

"İngilis kralı Gevorq": 1910-1936-cı illərdə Böyük Britaniya kralı olan V Corc [George V] nəzərdə tutulur.

"…hər iki kameraya…": Britaniya Parlamentinin iki palatası (Lordlar Palatası və İcmalar Palatası) nəzərdə tutulur.

***Bakı xəbərləri***

"Astrabad": İranın şimalında bugünkü Gürgan (yaxud Qorqan) şəhərinin keçmiş adı.

***Bakı İkinci İstiqrazi-Mütəqabilə Cəmiyyəti***

"Mixaylovski və Baryatinski küçələrin küncündə…": Mixaylovski Bakıda indiki Əziz Əliyev, Baryatinski isə indiki Əbdülkərim Əlizadə küçəsidir.